# Regional və geosiyasi sabitliyin açarı



***İkinci Qarabağ müharibəsində qazandığı parlaq qələbə təkcə hərbi-siyasi müstəvidə deyil, həm də qlobal nəqliyyat və logistika sistemində mühüm dəyişikliklərin əsasını qoydu. Müharibəyə son qoyan 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu bəndində regionun bütün iqtisadi və nəqliyyat-kommunikasiya xətlərinin bərpası xüsusi vurğulanaraq Cənubi Qafqazda uzun müddət blokadada qalan inteqrasiya imkanları üçün hüquqi və siyasi çərçivə yaradıldı.***

Bənddə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında yeni nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılması nəzərdə tutulur. Dəhliz Azərbaycanın daxili nəqliyyat əlaqələrinin bərpası, Avrasiya miqyasında genişmiqyaslı geoiqtisadi tənzimləmələrin katalizatoru kimi çıxış edir. Mühüm məqam odur ki, Zəngəzur dəhlizi regional səviyyədə təkcə Azərbaycan və Ermənistan arasında deyil, həm də daha geniş geosiyasi məkanda - Mərkəzi Asiya, Yaxın Şərq, Avropa və Uzaq Şərq arasında strateji nəqliyyat bağının qurulması mənasında mühüm əhəmiyyət kəsb edir. Layihənin reallaşması ilə Şərq-Qərb nəqliyyat oxunda təhlükəsiz, qısa və səmərəli marşrut alternativi formalaşır ki, bu da qlobal ticarət zəncirinin dayanıqlılığı baxımından son dərəcə vacibdir. Beynəlxalq aktorların, xüsusilə də Avropa İttifaqı, Rusiya, Çin və Türkiyə kimi böyük güc mərkəzlərinin layihəyə maraq göstərməsi Zəngəzur dəhlizinin qitələrarası əhəmiyyətə malik meqalayihə olduğunu çevrildiyini göstərir. Çin ilə Avropa arasında "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində daşınmaların daha təhlükəsiz və operativ şəkildə reallaşması siyasi təhlükəsizlik kontekstində əsas prioritetlərdən biri kimi çıxış edir. Hazırkı mərhələdə Avrasiyanın gələcək geoiqtisadi düzəni Zəngəzur dəhlizi kimi strateji layihələrin uğurla icra olunması ilə birbaşa əlaqəlidir. Dəhliz Şimal-Cənub və Şərq-Qərb nəqliyyat xətlərinin kəsişmə nöqtəsində yerləşərək Azərbaycanın tranzit potensialını qat-qat artırmaqla yanaşı, Cənubi Qafqazın uzunmüddətli sülh və əməkdaşlıq platformasına çevrilməsi üçün də mühüm zəmin yaradır.

2022-ci il fevralın 24-də Rusiya-Ukrayna müharibəsinin başlanması ilə beynəlxalq münasibətlər sistemində ciddi silkələnmələr baş verdi. Qərb-Rusiya qarşıdurması enerji və hərbi təhlükəsizlik sferasında, eyni zamanda nəqliyyat-logistika infrastrukturlarında da qütbləşməni və prioritetlərin dəyişməsini şərtləndirdi. Qarşıdurmanın təsirləri xüsusilə Avrasiya məkanında nəqliyyat marşrutlarının təhlükəsizliyi və etibarlılığı ilə bağlı narahatlıqları artırdı. Bu kontekstdə Rusiyadan keçən ənənəvi marşrutların riskli xarakter alması region dövlətlərini alternativ yollar axtarmağa vadar etdi. Məhz bu şəraitdə Azərbaycanın da iştirak etdiyi Orta Dəhliz - yəni Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu daha çox diqqət mərkəzinə gəldi. Çin-Qazaxıstan sərhədindən başlayan marşrut Xəzər dənizi vasitəsilə Azərbaycana, oradan isə Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanır. Orta Dəhlizin əsas üstünlüyü həm də vaxt və məsrəf baxımından səmərəliliyidir. Belə ki, dəhliz vasitəsilə yüklər Çindən Avropaya 7-8 gün daha tez çatdırılır. Orta Dəhlizin strateji seqmenti kimi nəzərdə tutulan Zəngəzur dəhlizinin işə düşməsi həm regional inteqrasiyanı dərinləşdirəcək, həm də Qarabağın və Naxçıvanın iqtisadi potensialının üzə çıxarılmasında mühüm rol oynayacaq, Orta Dəhlizin səmərəliliyini daha da artırmaqla onu Avrasiyanın əsas yükdaşıma arteriyalarından birinə çevirəcək. Hazırda Azərbaycan öz üzərinə düşən texniki və logistik öhdəlikləri yerinə yetirir. Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin istismara verilməsi işğaldan azad edilmiş ərazilərin iqtisadi reinteqrasiyasını sürətləndirəcək.

Bu gün Azərbaycan siyasi sabitliyi, balanslı xarici siyasəti və strateji mövqeyi sayəsində qlobal güclərin diqqət mərkəzindədir. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz Cənubi Qafqazda söz sahibidir. Həm Avropa İttifaqı, həm Çin, həm də Mərkəzi Asiya ölkələri Bakı ilə əməkdaşlığı etibarlı tərəfdaşlıq nümunəsi kimi qiymətləndirirlər. Azərbaycanın mövcud geocoğrafi üstünlüyü, sülhə və təhlükəsizliyə sadiq mövqeyi ölkə daxilindəki sosial-siyasi sabitlik ölkəmizin beynəlxalq sistemdə rolunun artmasına səbəb olur. Bu da Azərbaycanın regional sabitliyin və inteqrasiyanın memarı kimi çıxış etməsinə şərait yaradır.

Son illər Türkiyə və Azərbaycanın bölgədə artan nüfuzu, siyasi-hərbi koordinasiyası və ortaq milli maraqlar ətrafında birləşməsi yalnız ikitərəfli münasibətlərin inkişafı ilə məhdudlaşmır. Bu yaxınlaşma bütün türkdilli dövlətlər arasında yeni strateji sinxronluğun formalaşmasına da zəmin yaradıb. Xüsusilə də Zəngəzur dəhlizi ideyası türk dünyasının coğrafi parçalanmasını aradan qaldırmaq baxımından tarixi dönüş nöqtəsi ola bilər. Bir əsrə yaxındır ki, türk coğrafiyası Zəngəzur bölgəsində süni şəkildə yaradılmış geosiyasi maneə səbəbindən fiziki olaraq parçalanmışdı. Lakin bu gün Azərbaycan və Türkiyənin siyasi iradəsi, iqtisadi gücü və diplomatik səyləri nəticəsində həmin maneə aradan qaldırılır. Dəhliz eyni zamanda birləşdirici mənəvi-mədəni arteriya, qırılmış tarixi bağların bərpası anlamı da daşıyır. Ortaq "Turan" məkanının formalaşdırılması, bu gün artıq romantik idealizm yox, praktiki siyasi gündəlik məsələyə çevrilməkdədir. Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya təşəbbüsləri, nəqliyyat, enerji, gömrük və rəqəmsal transformasiya sahələrində koordinasiya səviyyəsinin artması türk dövlətlərinin vahid platforma ətrafında toplaşmaq potensialını ortaya qoyur.

Zəngəzur dəhlizi bu mənada türk dünyasının "orta magistralı"na çevrilməkdədir. Dəhliz vasitəsilə Mərkəzi Asiya ölkələrindən - Qazaxıstan, Türkmənistan və Özbəkistandan daşınan yüklərin Avrasiya bazarlarına daha sürətli, təhlükəsiz və səmərəli şəkildə çıxarılması, həm bu dövlətlərin iqtisadi imkanlarını genişləndirəcək, həm də regionda ticarət və sənaye dinamizmini artıracaq.

Tarix boyu Ermənistan bölgədə türk varlığına qarşı "geosiyasi tıxac" funksiyası daşıyıb. Lakin bu gün regionda formalaşan yeni güc balansı, Azərbaycan və Türkiyənin qətiyyətli iradəsi bu baryeri dəf edir. Zəngəzur dəhlizi vasitəsilə bu maneənin aradan qaldırılması Ermənistanın da uzunmüddətli təcrid vəziyyətindən çıxması üçün fürsət ola bilər. Rəsmi İrəvanın Fransa və İran kimi regional və qlobal aktorların təsirinə məruz qalaraq Zəngəzur dəhlizi layihəsinə süni sədlər yaratması əslində erməni xalqının maraqlarına yox, xarici güclərin strateji məqsədlərinə xidmət edir. Halbuki, məhz bu dəhliz Ermənistanın uzun illərdir davam edən iqtisadi və siyasi təcrid vəziyyətindən çıxaracaq. Bu mənada rəsmi İrəvanın xarici dəstəyə arxalanaraq geoiqtisadi layihələrdən kənarda qalması yalnız özünə ziyandır. Dinamika göstərir ki, dünya miqyasında müzakirə olunan və qlobal nəqliyyat zəncirinin ayrılmaz hissəsinə çevrilən Zəngəzur dəhlizi gec-tez açılacaq.

Zəngəzur dəhlizinin açılmasına böyük güclər, o cümlədən ABŞ-da böyük maraq göstərir. Zəngəzur dəhlizi həm də ABŞ-ın enerji təhlükəsizliyi strategiyasına uyğun gəlir. Azərbaycan qazının Avropaya ixracını təmin edən Cənub Qaz Dəhlizi layihəsi ilə paralel olaraq, alternativ quru nəqliyyat marşrutlarının formalaşması Avropa bazarlarının diversifikasiyasını gücləndirə bilər. Bu isə ABŞ-ın Rusiya qazından asılılığı azaltmaq yönündəki siyasətinə uyğundur. Həmçinin Transxəzər istiqamətindəki yüklərin daha sürətli, təhlükəsiz və səmərəli formada daşınması Çin ilə rəqabətdə əlavə üstünlük qazandırır. Vaşinqton bu marşrutların Orta Dəhliz üzərindən inkişafına böyük əhəmiyyət verir və Zəngəzur dəhlizi bu strategiyanın bir hissəsidir. Eyni zamanda, ABŞ dəhlizi regional sabitlik üçün siyasi və diplomatik alət kimi də görür. Azərbaycanla Ermənistan arasında davam edən danışıqlarda Zəngəzur dəhlizinin gündəmdə saxlanılması və kommunikasiyaların açılması məsələsi Vaşinqtonun dəstəklədiyi əsas mövzulardandır.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .-2025.- 9 avqust(№165).- S.5.